Dünyanın
ən böyük
dərsi

# Müəllim üçün təlimat

## World's Largest Lesson saytından və resurslarından necə istifadə etməli



- Birləşmiş Millətlər Təşkilatı 25 sentyabr 2015-ci il tarixində Dayanıqlı İnkişafın Qlobal məqsədlərini qəbul etdi.
- "Dünyanın ən böyük dərsi"(World's Largest Lesson) ideyası ondan ibarət idi ki, sentyabrın 27-dən başlayaraq həftə ərzində bütün dünya üzrə məktəblərdə Qlobal məqsədlər barədə dərs keçirilsin.
- Siz dərsi münasib bildiyiniz və ya imkanınız olan vaxt keçirin.
- Bu saytda olan materiallar sizə dərsi keçirməyə köməklik edəcək. Siz materialları tədris üsulunuza və məktəb şəraitinə uyğunlaşdırıb istifadə edə bilərsiniz.
- Materiallar 8-14 yaşlı uşaqlar üçün hazırlanıb, lakin siz onları istənilən yaş qrupuna uyğunlaşdıra bilərsiniz.

Dünyanın ən böyük dərsi

# Qeyd

## Qlobal vətəndaşlığın tədrisi və həssas mövzuların müzakirəsi



- Dərslərdə müzakirə apararkən həssas olun və şagirdlərin həyat təcrübəsini nəzərə alın. Sinfi elə bir “təhlükəsiz" məkana cevirin ki, şagirdləriniz qorxmadan ideyalarını və hətta həyatlarında baş vermiş hadisələri bölüşə bilsinlər. Bəzi şagirdlər müəyyən müzakirələrdə iştirak etməməyi xahiş edə bilər, onların xahişinə hörmətlə yanaşın. Sinifdə mübahisəli mövzuların müzakirəsi ilə bağlı aşağıdakı linklərdə faydalı məsləhətlər tapa bilərsiniz.

- Mübahisəli məsələlərin tədrisi üzrə Oxfam UK təlimatı (*Teaching Controversial Issues*):
  - http://www.oxfam.org.uk/education/teacher-support/tools-and-guides/controversial-issues

- Emosional və ziddiyyətli tarixin tədrisi üzrə Tarix assosiasiyasının təlimatı (*Teaching Emotive and Controversial History*)
  - http://globaldimension.org.uk/resources/item/1522

- Bir çox müəllimlər bu tip diskussiyalar aparılarkən "Uşaqlar üçün fəlsəfə" dən  (Philosophy for Children) faydalı məsləhətlər tapırlar.
  - http://globaldimension.org.uk/news/item/13650

Dünyanın ən böyük dərsi

# "Dünyanin ən böyük dərsi"-nin animasiya filmi



## Sinifdə istifadə qaydası

- 6 dəqiqəlik animasiya filmi uşaqları Qlobal məqsədlər ilə tanış edir, məqsədlərin tətbiqi üçün lazımi şərait yaradır, Birləşmiş Millətlər Təşkilatının rolunu izah edir və uşaqları “Məqsədlər üçün hansı töhfəni verə bilərsizniz?” barəsində düşündürür. Film “Biz yer üzündə yaşamış ən yaradıcı varlıqlarıq, bizim dünyanı dəyişmək üçün gücümüz var” ideyasını təbliğ edir.
- Giriş dərsin planlarından birini istifadə edərək filmi iclasda və ya dərsdə “Qlobal məqsədlərə giriş” kimi nümayiş etdirə bilərsiniz (30 və ya 60 dəqiqə).
- Film Qlobal məqsədlər üzrə hər hansı bir dərsin "dayaq nöqtəsi" kimi nümayiş etdirilə bilər. Tədris üçün lazımi şərait yaratmaq üçün filmi dərsin əvvəlində nümayiş etdirin.
- Həmçinin filmin ətrafında dərs qurub, müəyyən anlarda filmi dayandıraraq gördüklərinizi müzakirə edə bilərsiniz. Şagirdlərin dərk etdiyini yoxlaya, daha aktual hesab etdiyiniz məsələləri seçərək bu məsələlər barədə düşünməyi onlardan xahiş edə bilərsiniz.

Dünyanın ən böyük dərsi

# Komiks “Dəyişiklik qəhrəmanlari”



## Sinifdə istifadə qaydası

- 6 səhifəlik komiks uşaqlar üçün Qlobal məqsədlərə girişi əks etdirir. Komiksdə “Hər birimizin dünyanı daha yaxşı etmək üçün qeyri-adi qabiliyyətimiz var” mövzusu əks olunur.
- Uşaqlara dəyişiklik qəhrəmanı olmağı və məqsədlərə nail olmaq üçün öz töhfələrini verməyi təklif edir.
- Giriş dərsin planlarından birini istifadə edərək bu komiksi filmin alternativi olaraq seçə bilərsiniz və ya filmlə birgə iclasda, dərsdə Qlobal məqsədlərə giriş kimi göstərə bilərsiniz (30 və ya 60 dəqiqə).
- Şagirdlərə dərsdən sonra komiksi oxumağı tapşıra bilərsiniz.
- Həmçinin komiksin ətrafında dərs qura bilərsiniz. Onu çap edib paylaya və ya sinifdə ekranda göstərərək birlikdə oxuya bilərsiniz. Siz şagirdlərin dərk etdiyini yoxlaya, onlar üçün daha aktual hesab etdiyiniz məsələləri seçərək illüstrasiya və ifadələri müzakirə edə bilərsiniz. İllüstrasiyalar məna yükü daşıyır və müzakirəni fəallaşdıra bilər.

Dünyanın ən böyük dərsi

# “Arzuladığımız dünya” – qlobal məqsədlərin izahı



## Sinifdə istifadə qaydası

- Buklet Qlobal məqsədlərin daha ətraflı izahı üçün ən gənc insanların iştirakı ilə yazılıb. Kitabın əvvəlində Minilliyin İnkişaf Məqsədlərini və Dayanıqlı İnkişafın Qlobal məqsədlərini bir-birinə bağlayan terminlər lüğəti (glossary) verilmişdir. Kitab hər məqsədi ayrılıqda şərh edir və ona nail olmaq üçün tələb olunanları əks edirir. Hər səhifənin sonunda suallar var. Şagirdlər sualları cavablandırmalıdır.

- Bukleti Qlobal məqsədlər haqqında əlavə tədris materialı kimi istifadə edə bilərsiniz. Buklet müəllimlərə sadə və faydalı, uşaqlara və gənclərə isə Qlobal məqsədləri anlamaq üçün lazım olan əlavə məlumat verir.

- Siz bukleti çap edib şagirdlərinizlə bölüşə və ya bölmələri hər bir konkret məqsədin  müzakirəsi zamanı oxuya bilərsiniz.

Dünyanın Ən Böyük Dərsi
In partnership with: unicef
Sponsored by: AVIVA, gettyimages, PEARSON, Standard Chartered, Unilever
Powered by: tes
Delivered by: UNESCO
Translated by: Berlitz

# Dərs planlari

## Dərs planları toplusu müəllimlər üçün müəllimlər tərəfindən yaradılmışdır.

## Dərs planları iki qrupa bölünür. Onlar məqsədlərlə və ya tədris fənnləri ilə əlaqəli ola bilər.

## Qrup 1
## Qlobal məqsədlərə giriş, məqsədlərin əsaslandığı prinsiplər və ata biləcəyimiz addımlar.

## Dərs planının adı

- Qlobal məqsədlərə giriş 30 dəqiqə (vətəndaşlıq)
- Qlobal məqsədlərə giriş 60 dəqiqə (vətəndaşlıq)
- Qlobal məqsədlərə nail olmaq  naminə tərəfdaşlıq (vətəndaşlıq)
- Sağlam həyat tərzi (coğrafiya və sosial araşdırmalar)
- Yolu yarıya qədər getmək mənasızdır: Minilliyin İnkişaf məqsədlərindən Qlobal Məqsədlərə (coğrafiya və sosial araşdırmalar)
- Dünya bərabərsizliklə  doludur. Məgər bu ədalətlidir? (vətəndaşlıq)
- Dəyişiklik dizaynı: Bir ideya, bir həftə



Dərs planları “Qlobal düşün"lə www.think-global.org.uk əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Ədalətli və dayanıqlı dünya üçün təlimi dəstəkləyirik.

Dünyanın Ən Böyük Dərsi · In partnership with: unicef · Sponsored by: AVIVA, gettyimages, PEARSON, Standard Chartered, Unilever · Powered by: tes · Delivered by: UNESCO · Translated by: Berlitz

## Qrup 2
## Tədris fənnlərinin konkret məqsədləri ilə bağlı dərs planları.

Dünyanın ən böyük dərsi

| Məqsəd | Tədris planının adı |
|---|---|
| 1 YOXSULLUĞA SON | Qlobal yoxsulluq, lokal həllər (Coğrafiya və Sosial araşdırmalar) |
| 3 SAĞLAMLIQ VƏ RİFAH | Sağlam başlanğıc (Həyat bilgisi, Vətəndaşlıq) |
| 4 KEYFİYYƏTLİ TƏHSİL | • Təhsil dünyanı dəyişə bilər (dillər, Təsviri incəsənət, Coğrafiya və Sosial araşdırmalar)<br>• Qızlar təhsil alanda hamı qazanır (Coğrafiya və Sosial araşdırmalar).<br>• Niyə bu qədər uşaq hələ də məktəbə getmir (Coğrafiya və Sosial araşdırmalar) |
| 5 GENDER BƏRABƏRLİYİ | Missiya: Gender bərabərliyi (Vətəndaşlıq, Coğrafiya və Sosial araşdırmalar) |
| 6 TƏMİZ SU VƏ SANİTARİYA | Hamı üçün təmiz su (Həyat bilgisi, Coğrafiya və Sosial araşdırmalar) |
| 7 UCUZ VƏ TƏMİZ ENERJİ | Enerji ehtiyatları və Qlobal məqsədlər (Həyat bilgisi, Coğrafiya və Sosial araşdırmalar) |
| 10 QEYRİ BƏRABƏRLİYİN AZALDILMASI | Dünya bərabərsizliklə doludur. Məgər bu ədalətlidir? (Sosial araşdırmalar) |
| 12 DÜŞÜNÜLMÜŞ İSTEHLAK VƏ İSTEHSAL | • Sağlam həyat tərzi (Coğrafiya və Sosial araşdırmalar)<br>• Enerjiyə qənaət layihəsi (Riyaziyyat, Həyat bilgisi, Coğrafiya və Sosial araşdırmalar) |
| 14 SU ALTINDA HƏYAT | Sualtı ehtiyatların qorunması (Həyat bilgisi, Coğrafiya və Sosial araşdırmalar) |
| 15 YER ÜZÜNDƏ HƏYAT | Ətraf mühitin çirklənməsinin planetimizə təsiri (Həyat bilgisi, Coğrafiya və Sosial araşdırmalar) |
| 16 SÜLH, ƏDALƏT VƏ GÜCLÜ İNSTITUTLAR | • Cəmiyyətdə zorakılıq anlayışı<br>• Sülh nədir? (Sosial araşdırmalar və Tarix) |
| 17 DAVAMLI İNKİŞAF NAMİNƏ TƏRƏFDAŞLIQ | • Qlobal məqsədlərə nail olamaq üçün tərəfdaşlıq (Vətəndaşlıq) |

Dünyanın ən böyük dərsi

# Qlobal məqsədlərə nail olmaq üçün fəaliyyət

Müəllim və ya fəal kampaniya iştirakçısı olaraq, siz uşaqları və gəncləri məlumatlandırıb, onları yoxsulluğun aradan qaldırılması, bərabərsizliyin azaldılması və iqlim dəyişikliklərinə adaptasiya olmaq kimi fəaliyyətə ruhlandıra bilərsiniz.



- Uşaq və gənclərin fəal iştiraka stimullaşdırılmasının bir neçə üsulu.
  - 8-14 yaşınadək uşaqlar sizin köməyinizlə qeyri-adi bacarığını "Mən bacararam!" layihəsində tapa bilər.
  - “Dəyişiklik dizaynı: bir ideya, bir həftə” dərsinin planını yükləyin və şagirdlərə bu andan öz şəhərlərində və ya kəndlərində dəyişiklik etməyə kömək edin. Bu plan və www.dfcworld.com saytındakı materiallar uşaqlara aşağıdakı sxem çərçivəsində hərəkət etməyi təklif edir. Hiss etmək – Təsəvvür etmək – Həyata keçirmək – Bölüşmək. Bu sxemi istənilən şəraitdə və istənilən yaşda uşaqlarla istifadə etmək olar.
  - Şagirdlər öz ölkələrinin hökumətlərini Qlobal məqsədlərə imza atmaqla götürdükləri öhtəliklərə məsuliyyətlə yanaşmağa çağıran gənclər təşkilatına və şəbəkələrə də qoşula bilər.
  - www.plan-international.org
  - www.wagggs.org/en/home
  - www.restlessdevelopment.org
- Siz 2015-ci ildən sonra səslərinin bütün dünyada eşidilməsini arzulayan uşaq və gənclər üçün materiallar toplusunu yükləyə bilərsiniz. Bu vəsait onlara fəaliyyət planını hazırlamağa və seçki kampaniyasında fəal iştirak etməyə kömək edəcək.
  - www.restlessdevelopment.org/file/global-agreements-grassroots-advocacy-toolkit-pdf